## Deyirsən Şer Yaz...

◆Muradov Sövdəyar (Zəngilanlı)

Deyirsən şer yaz, nə yazım sənə?
Sovulub bostanım, tağı qalıbdır
Birdə ətin gülər talehim mənə,
Solan yanağımın ağı qalıbdır.

İlham bulağımın tutulub gözü,
Çağlamır qəlbimin söhbəti, sözü
Hanı o yerlərin gülü nərgizi?!
Könül baxçasının bağı qalıbdır.

Geçə də, gündüz də hey xəyaldayam,
Gedirəm, yetmirəm, yenə yoldayam.
Özün bilirsən ki, mən nə haldayam
Düşmənin sinəmdə dağı qalıbdır...

Çoxtandır həsrətəm dağlar mehinə
Yaşıl çəmənlərin səhər şehinə.
Bir gün qonağ gedək meşə bəyinə,
Yaddaşımda Od-ocağı qalıbdır.

Gün o gün olsun ki, kövrək vətəni,
Qucaq Şüküratazı gəzək Süsəni,
Orda bağrına bas, əzizlə məni,
Yaddaşımda od-oçağı qalıbdır.

Ay mənim əzizim, mənim qardaşım,
Səninlə xoşbəxt olsun yarın, qardaşın,
Naxcıvan elində ucadır başın,
Sənin kimi bir dayağa qalıbdır.

## Yaşayacaqsan

◆Əjdər Yunus Rza

Hər bir insan ömrü karvan düzümü,
Əllimi, altmışmı, səksənmi, yüzmü?
Fərqi yox neçəsin daşıyacaqsan.
Bəxtinə yazılmış ömür payını,
Şərəflə yaşasan yaşayacaqsan.

Baş əymə alçağa gəl çörək üçün,
Çevrilmə söyüdə sən külək üçün.
Qansızlar üşüdən bir ürək üçün,
Od olub alışsan yaşayacaqsan.

Arxalı köpəklər qurd basan olur,
Xəlvətdə tülkü də, bir "aslan" olur.
Hər doğulan demə, insan doğulur
Bu adı daşısan yaşayacaqsan.

İşindən elinə gələrsə ziyan,
Gec deyil, ay Əjdər, amandı dayan.
Əgər olsan haqqa sən arxa, hayan,
Düzü-düz danışsan yaşayacaqsan